Son dərəcə mənəvi-psixoloji mahiyyət kəsb edən və geniş məna daşıyan qiymətləndirmə/dəyərləndirmə prosesi obyektiv və qeyri-obyektivliyindən asılı olaraq, insanın həyatına, fəaliyyətinə, şəxsiyyətinə, dünyagörüşünə, qəlb dünyasına, ətraf aləmdəkilərə qarşı münasibətlərinə bilavasitə ciddi emosional təsir göstərən amillərdən sayılır. Təbii ki, həyatda nə varsa qiymətləndirməyə məruz qalır, hər kəs, hər toplum əməlinə, mövqeyinə görə qiymətləndirilir. Yaradıcı proses olan təhlil, araşdırma, tədqiqat, təsnifetmə fəaliyyətlərinin əsasında mahiyyət etibarilə məhz qiymətləndirmə dayanır. Həmçinin idarəetmə və onun əsas atributu sayılan planlaşdırma da qiymətləndirmə ilə birbaşa bağlıdır. Belə ki, mövcud vəziyyəti ətraflı dəyərləndirmədən gələcək fəaliyyət istiqamətlərini planlaşdırmaq reallıqdan uzaqdır.

Obyektiv qiymətləndirmə, belə demək mümkünsə, inkişaf prosesinin, ilk növbədə, mənəvi inkişafın hərəkətverici qüvvəsidir. Mübaliğə etmədən düşünmək olar ki, istedadlı, zəhmətkeş insanlar layiq olduğu qiyməti almağı bütün şüurlu həyatının mənası hesab edirlər. Şübhəsiz, qiymətləndirənlə qiymətləndirilən arasında xoşməramlı münasibət forması yalnız ədalət amilinə əsaslana bilər. Çünki qiymətləndirmədə bəzi hallarda yol verilən yanlışlıqlar, xüsusilə də, tarixi-siyasi hadisələrin, görkəmli dövlət xadimləri və yaradıcı şəxsiyyətlərin vaxtında obyektiv qiymətini almaması əsl həqiqətlərin üzə çıxarılmasında böyük fasilələrə, insanların psixologiyasında ruhi sarsıntılara səbəb olur.

> *Gövhərin üstə qiymətin sərraf olan arif bilir,*
> *Ol ki, mübəssir olmadı, görə gövhər, nə faidə.*
>
> **İmadəddin Nəsimi,**
> **dahi Azərbaycan şairi və mütəfəkkiri**

# Qiymətləndirmə

## mənəvi məmnunluğa və inkişafa aparan yol...

(mülahizələr və yanaşmalar)

**Aydın ƏHMƏDOV,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*



**Haşiyə.** Neçə illər bundan əvvəl "Literaturnaya qazeta"da oxuduğum bir məqalədə qeyd edilmişdi ki, SSRİ Xarici Ticarət Nazirliyinin iki əməkdaşı məişət avadanlıqlarının satış sərgisi təşkil olunan xarici ölkəyə ezamiyyə zamanı digər ölkələrin nümayiş etdirilən eyniadlı avadanlıqların qiymətlərini öyrənmək və bu əsasda SSRİ-dən eksporta çıxarılacaq mallara daha münasib qiymətlərin təyini üçün bir neçə məsul şəxslə tanış olub onlara ziyafət verməklə dolayısı yolla sərfəli məlumatlar əldə edirlər. Nəticədə dövlət büdcəsinə külli miqdarda valyuta daxil olmasının səbəbkarlarına çevrilirlər. Geri qayıdarkən isə onların bu təşəbbüskar fəaliyyətinə heç bir dəyər vermədən ezamiyyə planında nəzərdə tutulmayan məqsədə vəsait xərclədikləri üçün vəzifələrindən kənarlaşdırılırlar və sonrakı taleləri daha heç kimi maraqlandırmır.

### Nədən başlanır qiymətləndirmə?!

Bu suala birmənalı cavab vermək elə də asan deyil. Əslində, düzgün qiymətləndirmə ədalətlilik nişanəsi, bəsirətli yanaşma tərzidir. Dərindən diqqət yetirsək, şifahi xalq ədəbiyyatımızda öz real təcəssümünü tapmış yüzlərlə hikmət və müdrikliyin ifadəsi olan ədəbi-bədii nümunələr uzunillik "xalq tədqiqatları"nın, həyat təcrübələrinin nəticələrinə, xalqımızın zəmanəyə, dünyəvi həqiqətlərə, insan münasibətlərinə fəlsəfi baxışlarını əks etdirən ibrətamiz qiymətləndirmə inciləridir (Yeri gəlmişkən, bütün bu zəngin xəzinə şagirdlərdə fəlsəfə haqqında anlayışların yaradılmasında, onlarda fəlsəfi dünyagörüşünün ilkin elementlərinin formalaşmasında etibarlı mənbə rolunu oynaya bilər).

Əgər hesab ediriksə ki, təhsil sistemində qiymətləndirmə bir proses kimi uşağın fiziki, emosional, mənəvi inkişafında əsaslı rol oynayır, bu zaman ailə amili ön plana çəkilməlidir. Təhsil müəssisəsinə gələnədək uşağın müəyyən mənəvi-psixoloji xüsusiyyətlərinin, meyil-maraq dairəsinin, ilkin olaraq, məhz ailə şəraitində büruzə verilməsi hamıya məlumdur. Lakin mənfi tendensiya ondan ibarətdir ki, heç də bütün valideynləri diqqətsizlikləri və müəyyən dərəcədə biliksizlikləri ucbatından övladlarının fərdi keyfiyyətləri lazımi səviyyədə maraqlandırmır. Halbuki ailələr zəruri məlumatları müzakirə etməklə uşaqla təhsil müəssisəsi arasında bir növ körpü funksiyasını yerinə yetirə bilərlər. Elə qiymətləndirmə prosesi də məhz valideynlə müəssisənin ilk əməkdaşlıq anından başlanır ki, bu da keyfiyyətli təhsilin təşəkkülündə etibarlı amilə çevirilir. Bu tezisi əsas tutaraq uşağın özünəməxsus fərdi xüsusiyyətlərinin qiymətləndirilməsi prosesinin dövri xarakter daşımasını "valideyn, tərbiyəçi, müəllim" əməkdaşlığı sayəsində ətraflı dəlillərlə ardıcıl olaraq təhsilin hər hansı pillə və səviyyəsindən digərinə ötürülməsini vacib pedaqoji tələb kimi irəli sürə bilərik. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da "təhsilverənlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi" əsas strateji hədəflərdən biri kimi qeyd olunmuşdur. Həmçinin hesab edirik ki, bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün ölkə miqyasında maarifləndirici funksiya daşıyan "Savadlı valideyn" təhsil layihəsinin hazırlanıb reallaşdırılması da məqsədəmüvafiq olardı.

Bu məqamda bir məsələyə toxunmağı lazım bilirik. Fikrimizcə, hər hansı bir direktiv qanunvericilik sənədinə dövrün tələbinə görə fərqli yanaşma sərgilənməsi təbii qəbul edilməlidir. Məsələn, ölkəmizin "Təhsil haqqında" Qanununda təhsilin məqsədinə, təhsilverənlərin və valideynlərin hüquq və vəzifələrinə aid müəyyən zəruri müddəalar yer alsa da, bilavasitə təhsilalanların səciyyəvi cəhətlərinin aşkara çıxarılıb obyektiv dəyərləndirilməsi sahəsində onların vəzifə və öhdəlikləri əsas göstəricilərdən biri kimi öz əksini tapmamışdır. Düşünürük ki, növbəti redaksiya ehtimalı yaranan hallarda bu təklifə baxıla bilər.

Digər bir məsələ... Nazirlər Kabinetinin 2019-cu ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nda belə bir mülahizə yer almışdır ki, "Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur".

Bu müddəa ilə əlaqədar diqqəti belə bir cəhətə yönəltmək istərdik ki, "təhsil" anlayışı elmi pedaqogikada vahid proses kimi təlimlə tərbiyənin vəhdəti anlamında nəzərdə tutulursa, o zaman yalnız təlim nəticələri təhsilin keyfiyyətinin müəyyən olunmasında birmənalı əsas göstərici statusunda qəbul edilə bilməz. Hazırda təhsilalanların vətənpərvərliyinə, vətəndaşlıq və dövlətçilik mövqeyinə, şəxsiyyətyönlü əlamətlərinə, milli-mənəvi dəyərlərə sadiqliyinə cəmiyyətdə daha üstün keyfiyyətlər kimi diqqət yetirildiyindən onların təhsil prosesində qiymətləndirilməsinə də yeni baxış bucağı yaranması təbii haldır. Bu mənada təhsilin keyfiyyətinin idarəolunmasında təlim nəticələri ilə yanaşı, şagirdlərin yaş və fizioloji inkişafı baxımından milli-mənəvi-əxlaqi, psixoloji xüsusiyyətlərinin mərhələlərlə dəyərləndirilməsindən alınan nəticələr də ciddi arqument olaraq nəzərdə tutulmalıdır. Ümummilli Liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin müdrikanə fikridir ki, "Gəncləri əməli işə, sözün geniş mənasında həyata hazırlamaq üçün tədris prosesini mənəvi tərbiyə ilə get-gedə daha dolğun şəkildə əlaqələndirmək lazımdır. Bu isə gənclərə nəinki "Kim olmalı" sualına cavab verməkdə, hətta daha əhəmiyyətli olan başqa suala - "Nə cür adam olmalı?" sualına cavab tapmaqda kömək etmək deməkdir".

Ümumi təhsil üzrə məzmun standartlarının mənimsənilməsi səviyyəsini müəyyənləşdirən məktəbdaxili qiymətləndirmə növləri (diaqnostik, formativ, summativ) şagirdlərin təhsilalma potensialının idarəedilməsində daha geniş imkanlara malikdir. Yeri gəlmişkən, pedaqoji ali məktəblərimizdə məktəbdaxili qiymətləndirmə növlərinin elmi-pedaqoji və psixoloji aspektdə məqsədyönlü tətbiqi mexanizmləri və metodikası tələbələrə hərtərəfli öyrədilməlidir. Xüsusilə, ibtidai təhsilə başlarkən və sonrakı təşkilati dövrdə düzgün və məqsədyönlü diaqnostikası aparıldığı təqdirdə əldə olunan nəticələr şagirdlərin gələcək təhsilinin "yol xəritəsi"nin dəqiqləşdirilməsində, onların idraki inkişafının, təfəkkür tərzinin, meyil, maraq dairəsinin, mənəvi-psixoloji, fizioloji durumunun təsəvvür olunmasında, müəllim tərəfindən "tanınması"nda, obrazlı desək, "hansı hava ilə nəfəs alması"nın üzə çıxarılmasında mühüm əhəmiyyətə malikdir.

**Haşiyə.** Bu hadisəni biz tələbələrə xatirəsini daim əziz tutduğumuz görkəmli psixoloq-alim, professor Əbdül Əlizadə danışmışdı. Hadisə bundan ibarətdir ki, ötən əsrin əvvəllərində Rusiyanın uşaq koloniyalarından birinin direktoru yeməkxanadan çörək oğurlamış bir nəfəri yoldaşlarının qarşısına çıxarıb ona bir parça çörək verərək yeməsini tələb edir. Həmin uşaq özünü itirib ağlamağa başlayır, hərəkətindən xəcalət çəkir və üzr istəyir. Hadisəni eşidən digər bir koloniyanın direktoru da eyni əməl törətmiş uşağa dəstə qarşısında çörək verib yeməsini təklif edir. Uşaq da heç nə olmamış kimi çəkinmədən çörəyi yeməyə başlayır. Sonralar həmin koloniyanın direktoru danışırmış ki, həmkarımdan fərqli olaraq, mən o uşağı tanımadığım, xarakterini bilmədiyim üçün eksperimentim baş tutmamışdı.

Müşahidələr göstərir ki, nəzəri cəhətdən əsaslandırılmış gözlənilən nəticələrin təcrübədə reallaşdırılmasını təsəvvür etmək üçün prosesin davamlı şəkildə izlənilməsi və düşünülmüş bir sistemin hazırlanması labüddür. Fikrimizcə, formativ qiymətləndirməyə yalnız şagirdin təlimdəki irəliləyişlərinin uçotunun aparılması vasitəsi kimi deyil, həm də diaqnostik qiymətləndirmələrin nəticələrinə görə, şagirdin psixologiyasında, mənəvi durumunda, təhsilə münasibətində, meyil və maraqlarında, həyati bacarıqlarının formalaşdırılmasında baş verənləri aşağı siniflərdən başlayaraq məzun olanadək izləməyə və qiymətləndirməyə imkan yaradan iş forması mənasında baxılmalıdır. Zənnimizcə, heç də asan olmayan belə yol tutmasaq və bunu bir sistem halına salmasaq, "məktəblərdən kimləri məzun etmişik" sualına tam cavab verə bilmərik. Məktəbin fəxarət ünvanı yalnız yarış, olimpiada mükafatçılarından, ali məktəblərə qəbul edilənlərdən ibarət olmamalıdır, ona görə ki, şagirdə (məzuna) təkcə bilik, intellekt səviyyəsinə görə yox, həm də mənəvi-əxlaqi keyfiyyətləri nəzərə alınmaqla qiymət verilməlidir. Bu anda Qori Müəllimlər Seminariyasını bitirib 12 il ibtidai sinif müəllimi işləmiş görkəmli ədibimiz Cəlil Məmmədquluzadənin məşhur "Ölülər" əsərindəki İsgəndər obrazının dilindən deyilən bir fikri xatırlayaq: "Hamı deyir oxu alim ol, amma bunların biri də demir ki, oxu adam ol".

Belə bir sual da maraq doğurur: Nə üçün məzuna, əvvəlki illərdə olduğu kimi, attestatla birlikdə həmçinin digər vacib sənəd - mənəvi, mədəni, əxlaqi dəyərləri, psixoloji xüsusiyyətləri və s. keyfiyyətləri barədə xüsusi formalı xasiyyətnamə verilməsin?! Bu, həm məzunun, həm məktəb rəhbərliyi və müəllimlərin, eləcə də valideynlərin üzərinə düşən vəzifələrə cavabdehliyinin daha da artırılması üçün zəmin ola bilər.

Yeri gəlmişkən, şagirdlərin fənn sahələrinə meyil və marağının, ayrı-ayrı fənləri qavrama səviyyəsinin diaqnostik və formativ növlər üzrə qiymətləndirilməsi və nəticələrin nəzərə alınması məsələsinə bir daha toxunmaq istərdik. Təbii ki, bütün uşaqlar potensial öyrənmə, dərketmə imkanlarına, təfəkkür tərzinə, psixoloji və fizioloji xüsusiyyətlərinə görə eyni səviyyəyə malik deyillər və ola da bilməzlər. Bu günün fənlər üzrə dövlət standartları hamı üçün minimum tələbi əks etdirən "şagirdlər nəyi (nələri) bacarmalıdırlar?" istiqamətində qurulduğundan "şagirdlər nələri bacara, nələri mənimsəyə bilərlər?" yanaşması, bir növ, diqqətdən kənardadır. Hamıya eyni tələblər, hamıya fənlər üzrə eyni miqdarda dərs saatları tətbiq edildikdə təcrübə göstərir ki, bu, heç də müsbət nəticələnmir, əksinə, əksər hallarda uşaqlarda təlim marağının azalmasına gətirib çıxarır. Əslində, belə demək pedaqoji cəhətdən uyğundursa, hər bir uşaq malik olduğu potensialı baxımından öz təhsilinin sifarişçisidir. Həmişə deyirik ki, istedadsız uşaq yoxdur. Elə məktəb rəhbərliyinin, müəllimlərin ən mühüm vəzifəsi onlara əmanət edilmiş uşaqları dərindən tanıyıb müsbət keyfiyyətlərini, büruzə verilən istedad qığılcımlarını vaxtında aşkara çıxarıb dəyərləndirməkdən və onların gələcək inkişafı üçün təkliflər hazırlamaq və zəruri tədbirlər görməkdən ibarətdir.

**Haşiyə.** "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na uyğun olaraq, Təhsil Nazirliyinin "1999/2000-ci dərs ilinin "Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı ili" elan edilməsi haqqında" əmrində irəli sürülən tövsiyə xarakterli istiqamətlərdən biri də bu olmuşdu ki, ibtidai təhsil səviyyəsində III sinifdən etibarən meyil və maraqlarının, bacarıq və vərdişlərinin, idraki inkişaflarının səviyyəsinə görə, şagirdlərin şərti qruplaşdırılması diqqətdə saxlanılsın, ibtidai təhsildən sonra onların ayrı-ayrı proqram və tədris planları tətbiq edilən, deyək ki, humanitar və riyaziyyat istiqamətli V siniflərdə komplektləşdirilməsi imkanları təcrübədən keçirilsin. Reallıqda ilkin diferensiasiya əsasında təmayülləşmənin ibtidai təhsil səviyyəsindən sonra aparılması şagirdlərin təhsil maraqlarına cavab verə bilərdi, çünki bu halda ümumi orta təhsili bitirənədək mənimsəyənə də, mənimsəməyənə də, məsələn, dəqiq fənlər həftədə eyni saatla, eyni məzmunda tədris edilməyəcəkdi.

O vaxt bu ideyanın xeyli tərəfdarı olsa da, bəzi yaşlı "təhsilşünasların" etirazına tuş gəldiyi üçün təklif eksperiment edilməmiş qaldı. Bununla belə, fikrimizcə, faydalı layihələrə geniş meydan verildiyi indiki vaxtda həmin məsələyə yenidən qayıtmaq, onu pilot qaydasında sınaqdan keçirmək məsləhət olardı.

**P.S.** Təhsil fəaliyyəti dövründə uşağın təhsil əməyinin, maraqlarının, arzu və istəklərinin obyektiv qiymətləndirilməsi/dəyərləndirilməsi pedaqoji prizmada həm də bir tərbiyə vasitəsidir, fərdin şəxsiyyət, vətəndaş olaraq formalaşdırılmasına müstəsna dərəcədə müsbət təsir edən səbəbdir. Məntiq bundan ibarətdir ki, həyatda özünə qarşı obyektivlik görən şəxs yaşından asılı olmayaraq, kim olursa-olsun, bu hissi həyatı boyunca qəlbində yaşadacaq və digərlərinə münasibətdə də eyni mövqe tutacaqdır.